# ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİ və İZAHLI QEYDLƏR

31 dekabr 2014-cü il

VÖEN **1000504961**

Təşkilat: **Azərbaycan Milli İstiqlal Partiyası**

Sahə(fəaliyyət növü): **Siyasi təşkilatların fəaliyyəti**

Mülkiyyət novü(hüquqi forma): **Xüsusi**

Ünvan: **Bakı şəhəri, Azadlıq pr-ti, 179**

## 3. Azərbaycan Milli İstiqlal Partiyası haqqında

Azərbaycan Milli İstiqlal Partiyası Ədliyyə Nazirliyində 17 iyul 1992-ci ildə qeydiyyatdan keçmiş və o vaxtdan da fəaliyyətə başlayıb. Hesabat dövründə ödənişlə işləyən işçisi yoxdur.İctimai əsasla işləyən işçilərin sayı 8(səkkiz) nəfər olmuşdur.

**Missiya və məqsədlər**;

- hər hansı irqi,dini,sinfi,zümrəvi və sosial ayrı-seçkiliyi rədd edərək,Millət və Vətən birliyini təmin edə biləcək fikir,diyğu,məslək və fəaliyyət ümumiliyi əsasında xalqın bütün təbəqələrindən olan vətənpərvərləri müqəddəs Azərbaycan amalı ətrafında birləşdirmək,
- müstəqil, vahid, demokratik, qüdrətli Azərbaycan dövlətinin qurulması.

## 2.ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİ

1.*Hesabatın hazırlanmasının əsasları*

Azərbaycan Milli İstiqlal Partiyasının maliyyə hesabatı *AR-nın Siyasi partiyaların maliyyə hesabatlarının forması,məzmunu və təqdim edilmə Qaydasına* uyğun olaraq hazırlanıb.
Maliyə hesabatı Azərbaycan manatı ilə hazırlanmışdır.

2.*Qiymətləndirmə metodu*

Maliyyə fəaliyyətinin nəticələri və maliyyə fəziyyəti haqqında hesabatları hazırlanarkən mühasibat uçotunun kassa metodu tətbiq olunmaqla aktivlər ilkin dəyər uçot prinsipinə əsaslanaraq hazırlanmışdır.

3.*Maliyyə fəaliyyətinin ölçülməsinə maddi təsir göstərən spesifik uçot siyasətləri aşağıdakılardır:*

I.***Gəlirlərin tanınması***

*Üzvlük haqqları,İanələr,Dövlət büdcəsindən daxilolmalar*

Azərbaycan Milli İstiqlal Partiyasının gəlir mənbələri Partiya üzvlərinin üzvlük haqqları,ianələr və dövlət büdcəsindən daxil ola biləcək gəlirdən ibarətdir.

II.*İşçilərin mükafatlandırılması*

İşçilər ictimai əsaslarla işlədiyi üçün əmək haqqı hesablanmır və əmək haqqı ilə əlaqədar ayirmalar, ödənişlər aparılmır.

III.*Əsas vəsaitlər*

*Balans dəyəri*

Əsas vəsaitlər onların satınalma dəyəri və onlara hesablanmış amortizasiya və dəyərdən düşmə məbləği çıxılmaqla göstərilir.

*Amortizasiya*

Amortizasiya,Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi normalar əsasında əsas vəsaitin azalan qalıq metodu ilə hesablanmışdır.

Əsas vəsaitlərin kateqoriyaları üçün istifadə olunan amortizasiya normaları aşağıdakılardır:

- Hesablama texnikası (kompyüter) 30%
- Təsərrüfat inventarı (mebel və s.) 30%

IV.*Xarici valyuta*

Azərbaycan Milli İstiqlal Partiyasının xarici valyuta hesabı yoxdur və heç bir əməliyyat aparmayıb.

V.*Vergitutma*

Azərbaycan Milli İstiqlal Partiyasının işçiləri ictimai əsaslarla işlədiyi üçün əmək haqqı hesablanmır və əmək haqqından gəlir vergisi ödənilmir.

VI.*Uçot siyasətində dəyişikliklər*

Cari ildə uçot siyasətində heç bir dəyişiklik edilməmişdir.

## 3.MALİYYƏ HESSABATI ÜZRƏ QEYDLƏR

1.*Torpaq,tikili və avadanlıqlar.*

01.01.2012-ci il tarixə təşkilatın balansında 8580,00 manat dəyərində kompyüter və təsərrüfat inventarı olmuş və amortizasiya hesablandıqdan sonra 2942,94 manat dəyərində qalıq dəyəri ilə balansda göstərilmişdir.

2.*Pul vəsaitləri və onların ekvivalentləri*

Hesabat ilinin sonunda Pertiyanın kassa və bank hesabında qalmış pul qalığı aşağıdakı kimi olmuşdur:

| | |
|---|---|
| Bankda olan hesablaşma hesabları | – 0,00azn |
| Aşağı təşkilatın hesablaşma hesabları | – 0,00azn |
| Kassa | - 8,50 azn |
| Aşağı təşkilatın kassası | - 0,00 azn |
| Cəmi pul vəsaiti | - 8,50 azn |

3.*Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)*

Partiyanın aktivlərində qalan əsas vəsaitlərinin və ehtiyatların qalıq dəyərindən dövr ərzində hesablanmış xərcləri çıxdıqdan sonra qalan dəyərin xalis aktivdəki payını göstərir.Bu hesabda yaranan (zərər) məbləğ 2951,44 azn məbləğindədir.

4.*Qısamüddətli kreditor borcları*

Partiyanın qısamüddətli dövrdə ödənilməsi tələb olunan işçilərə və sair kreditorlara borcu yoxdur.

5.*Üzvlük haqları*
Hesabat dövründə üzvlük haqqı ödəyən Partiya üzvlərindən daxil olan üzvlük haqlarının cəmini əks etdirir.Dövr ərzində üzvlük haqlarının məbləği 2227,00 azn olmuşdur.

6.***İanələr şəklində götürülən gəlir***
Hesabat dövründə Partiya üzvlərindən və kənar şəxslərdən daxil olan ianə gəlirinin cəmini əks etdirir. Dövr ərzində ianələrin məbləği 400,00 azn olmuşdur.

7.***Cari işlərə sərf olunan vəsait***
Partiya əsas fəaliyyətinin davam etdirilməsi üçün çəkilmiş amortizasiya xərcləri göstərir. Hesabat dövründə bu maddə 1261,26 azn olmuşdur.

8.***Siyasi Partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər***
Partiya əsas fəaliyyətinin davam etdirilməsi üçün çəkilmiş icarə haqqı ,kommunal və informasiya təminatı xərclərinin cəmini göstərir. Hesabat dövründə bu maddə 1441,20 azn olmuşdur.

9.***Aşağı təşkilatlara ödənclər.***
Partiyanın aşağı təşkilatlarnın öz fəaliyyətini davam etdirilməsi üçün çəkilmiş icarə haqqı xərcini göstərir. Hesabat dövründə bu maddə 1181,10 azn olmuşdur.

Rəhbər:

"22" aprel 2015-ci il

M.Y.

MİLLİ İSTİQLAL PARTİYASI

*National İndependence Party of Azerbaijan*
4, M.Kasimov str. Baku Azerbaijan Republic.
Tel: (99412) 498 00 98
Fax: (99412) 441 53 09
mob: (99450) 339 14 56

*Azərbaycan Milli İstiqlal Partiyası*
Bakı şəhəri, M.Qasımov küçəsi,4
Tel: (99412) 498 00 98
Fax: (99412) 441 53 09
mob: (99450) 339 14 56

Çı/N=8 29 iyul 2015-ci il

**Azərbaycan Respublikasının**
**Mərkəzi Seçki Komissiyasına**

Sizin şifahi sorğunuza cavab olaraq məlumat veririk ki, 29.07.2015-ci il tarixinə olan qeydiyyat məlumatına əsasən Azərbaycan Milli İstiqlal Partiyasının üzvlərinin sayı 24 373 (İyirmi dörd min üç yüz yetmiş üç) nəfərdir.

2014-cü ilin maliyyə hesabatına əsasən cəmi 169 (bir yüz altmış doqquz) nəfər partiya üzvü üzvlük haqqı vermişdir.

2014-cü il üçün ödənilmiş üzvlük haqqlarının məbləği 2227 (iki min iki yüz iyirmi yeddi) manat olmuşdur.

**AMİP sədri**
**Yusif Bağırzadə**

**Baş mühasib**
**Vaqif Məmmədov**